*Azərbaycanın böyük Zəfəri ilə sona çatan 44 günlük Vətən müharibəsinin başlanmasından bir il ötür. Düz bir il əvvəl Azərbaycan xalqı, onun ordusu respublika Prezidentinin əmri və çağırışı ilə ayağa qalxıb öz gücünü və iradəsini, nəyə qadir olduğunu 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlayan və bu işğalın əbədiliyinə can atan erməni faşizminə nümayiş etdirdi, haqq mübarizəsinə səfərbər olub öz qətiyyətini ortaya qoydu. İşğalın əbədiləşdirilməsinə hesablanmış növbəti erməni təxribatı dünya erməniliyinin, erməni faşizminin və belə düşüncəyə havadarlıq edən qüvvələrin belinin qırılmasına yol açan bir mübarizəyə çevrildi.*



# Xalq, Lider, Ordu birliyinin möhtəşəm Zəfəri

*Biz dedik: yetər artıq, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Mən Ali Baş Komandan kimi əmr verdim ki, Azərbaycan əsgəri irəli, torpağımızı azad etməliyik, işğala son qoymalıyıq, işğalçını cəzalandırmalıyıq və belə də oldu. Azərbaycan 44 gün ərzində istədiyinə nail oldu, ədaləti bərpa etdi .*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Azğınlaşmış Ermənistan silahlı qüvvələri 2020-ci il sentyabrın 27-də müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə Azərbaycanın bir sıra yaşayış məntəqələrini, habelə müdafiə mövqelərini atəşə tutdular. Atəşkəsin geniş miqyaslı pozulması və yeni erməni silahlı təxribatının baş verməsi haqqında məlumat alan kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı İlham Əliyev dərhal müdafiə nazirinə, digər səlahiyyətli şəxslərə bu hərbi təxribatın qarşısının alınması üçün müvafiq göstəriş verdi. Nəticədə, Azərbaycanın müdafiə qüvvələrinin Ermənistan silahlı qüvvələrinin silahlı təxribatlarının qarşısının alınması üçün əks-hücum əməliyyatları başladı.

Elə həmin gün də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev baş vermiş hadisə ilə bağlı radio və televiziya ilə Azərbaycan xalqına müraciət etdi. Bu müraciətində o, Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı haqqında Azərbaycan xalqını məlumatlandırdı, baş verən geniş miqyaslı təxribatın mahiyyəti, məqsədi, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistan rəhbərliyinin son illərdə izlədiyi qeyri-konstruktiv siyasət və onun nəticələri haqqında öz mövqeyini bir daha xalqa çatdırdı. İlham Əliyev qeyd etdi ki, Azərbaycana qarşı Ermənistanın işğalçılıq siyasəti davam etsə də, həm tarixi ədalət, həm beynəlxalq hüquq Azərbaycanın tərəfindədir və ona görə də o, Ermənistan silahlı qüvvələrinin erməni təxribatlarına qarşı başlanan əks-hücum əməliyyatlarını Azərbaycan xalqının haqq işi kimi dəyərləndirdi.

Sentyabr ayının 27-də həm də İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu iclasda proqram xarakterli çıxış etdi. Bu çıxışda həm baş verən hadisə ilə bağlı respublika ictimaiyyəti məlumatlandırıldı, həm respublika rəhbərliyinin baş verən hadisələrlə bağlı mövqeyi ifadə olundu, həm də qarşıda dayanan vəzifələr haqqında fikir bildirildi.

Ali Baş Komandan İlham Əliyevin fikrincə, baş verənlər Ermənistanın Azərbaycana qarşı davam edən işğalçılıq siyasətinin davamı və nəticəsi idi. Bildirildi ki, Ermənistan rəhbərliyi davam etdirilən siyasətin ağır nəticələrə gətirib çıxara biləcəyi haqqında xəbərdar edilsə də, yenidən Azərbaycanın yaşayış məntəqələri və müdafiə mövqeləri ciddi atəşə tutulmuşdur. Yeni başlanan bu geniş miqyaslı hərbi təxribatdan sonra respublika daxilində sağlam və mübariz bir durumun hökm sürdüyü respublika Prezidenti tərəfindən iclas iştirakçılarının da nəzərinə çatdırıldı.

Sonra İlham Əliyev Ali Baş Komandan kimi erməni hərbi təxribatlarının qarşısının alınması üçün hərbi-strateji hədəfi müəyyənləşdirdi və onu ictimaiyyətə çatdırdı. Bu hədəf, əslində, bəlli bir hədəf idi – Ermənistanın Azərbaycana qarşı işğalına son qoymaq, respublikanın ərazi bütövlüyünü təmin etmək qaçqın və köçkünləri öz yurdlarına döndərmək. Həmin hədəfə çatmaq üçün 1994-cü ilin may ayından başlanan atəşkəs dövründə ATƏT-in Minsk qrupu çərçivəsində davam edən danışıqlarda Azərbaycan tərəfi sülh danışıqlarına üstünlük vermiş və məsələnin dinc şəkildə həllinə ümidlərini kəsməmişdi. Lakin Ermənistanın və ona himayədarlıq edən böyük dövlətlərin qeyri-konstruktiv mövqeyi nəticəsində ən kiçicik nəticələrə belə nail olunmamışdı. Əksinə, Ermənistan tərəfi bütün siyasəti və münaqişə ilə bağlı fəaliyyəti ilə göstərdi ki, Azərbaycanın işğal olunmuş ərazilərindən geri çəkilmək niyyətində deyil.

Bu təcavüzkar siyasətin qarşısının alınması ilə bağlı isə Ermənistana qarşı beynəlxalq miqyasda hər hansı bir təzyiq göstərilmədi. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinin məlum dörd qətnaməsinin qəbulundan 30 ilə yaxın bir vaxt keçməsinə baxmayaraq onlar kağız üzərində qaldı. Beynəlxalq münasibətlərdə belə ikili standartların qalması Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə əlavə bir dəstək oldu. Elə bu vəziyyət də Ermənistanın silahlı qüvvələrinin vaxtaşırı Azərbaycanın yaşayış məntəqələrinə və müdafiə mövqelərinə qarşı təxribatlarına yol açdı.

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısının alınması ilə bağlı Azərbaycan dövlətinin və Azərbaycan Ordusunun qarşısında dayanan hərbi-strateji hədəfi belə müəyyənləşdirdi: "Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Mən müxtəlif dövrlərdə dəfələrlə demişəm ki, bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik. Mən dəfələrlə demişəm, biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövləti yaradılsın. Heç vaxt imkan verə bilmərik və bugünkü hadisələr onu bir daha göstərir" .

Bununla Azərbaycan rəhbəri İlham Əliyev bəyan etdi ki, qarşıda dayanan vəzifə erməni hərbi qüvvələrinin təxribatlarının qarşısının alınması deyil, bütün cəbhə boyu əks-hücuma keçməklə işğal altında olan Azərbaycan ərazilərinin azad edilməsidir. Silahlı Qüvvələrin Ali Baş Komandanı qətiyyətlə bildirirdi ki, Azərbaycan dövləti artıq münaqişənin yarımçıq həlli ilə barışmayacaq, ərazilərin kimsəyə verilməsi ilə, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılması ilə barışmayacaqdır.

Başqa sözlə, İlham Əliyev beynəlxalq hüquq çərçivəsinə əsaslanmaqla zəkaya çağırış sədalarını ayaq altına alan Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarının azad edilməsi üçün bütün cəbhə boyu müharibəyə başlamaq əmri verdi. Yəni Azərbaycan Ordusunun, digər hərbi strukturların qarşısında Azərbaycan ərazilərinin tamamilə işğaldan azad edilməsi, münaqişənin yarımçıq deyil, bütünlüklə həll edilməsi kimi aydın və konkret tapşırıq qoyuldu.

Belə bir vəzifənin yerinə yetirilməsi üçün İlham Əliyev Azərbaycan xalqına və Azərbaycan Ordusuna güvəndiyini də bəyan etdi. O qeyd etdi ki, başlanan mübarizə haqq mübarizəsidir, bu mübarizədə Azərbaycan vətəndaşları Azərbaycan dövlətinin və Azərbaycan Ordusunun yanındadır. Respublika Prezidenti bu dəstəyi hər zaman hiss etdiyini də Təhlükəsizlik Şurasının iclasında səsləndirdi. İclasın gedişində baş verən hadisə ilə bağlı Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun məlumatı da dinlənildi və o, cəbhə xəttində mövcud olan vəziyyət haqqında məlumat verdi. Əks-hücum əməliyyatlarının elə ilk saatlarında düşmənin müdafiə xəttinin yarılması və yeddi kəndin işğal olunması haqqında Azərbaycan xalqını təbrik edən İlham Əliyev respublika ictimaiyyətinin vaxtaşırı məlumatlandırılması ilə bağlı Prezident administrasiyasına və Müdafiə Nazirliyinə müvafiq göstəriş verdi.



Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarına qarşı başlanan döyüşlər ilk vaxtlar əks-hücum əməliyyatları adlandırılırdı. Lakin qarşıya qoyulan vəzifələrin miqyasına, hərbi-strateji dəyərinə, bu vəzifələrin həlli üçün cəlb edilən hərbi qüvvələrin sayına, bu istiqamətdə görülən işlərin ümummilli əhəmiyyətinə görə aparılan hərbi əməliyyatlara yeni mövqedən yanaşıldı. 2020-ci il sentyabr ayının 30-da Mərkəzi Hərbi Klinik Hospitalda müalicə olunun yaralı hərbi qulluqçularla görüşdə İlham Əliyev bu döyüşləri "Vətən uğrunda gedən döyüşlər" kimi xarakterizə etdi. 2020-ci il oktyabr ayının 26-da isə xalqa müraciətində İlham Əliyev Ermənistanın işğalçılığına qarşı aparılan müharibəni "Vətən müharibəsi" adlandırdı.

Vətən müharibəsinin başlandığı ilk gün, yəni 2010-cu il sentyabr ayının 27-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin fərmanı ilə respublikanın bütün ərazisində hərbi vəziyyət elan edilməsi haqqnda fərman imzalandı. Həmin fərmanın icrası sentyabrın 28-i, saat 00.00-dan başlamalı idi. Bu fərmana əsasən, Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq edilməli idi. Fərmanda "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş digər bir sıra məhdudiyyətlərin də tətbiqi nəzərdə tutulmuşdu .

Vətən müharibəsinin başlanması ilə Ali Baş Komandan kimi İlham Əliyev əməliyyatların planlaşdırılmasını, əməliyyat istiqamətlərinin müəyyənləşdirilməsini, respublikanın hərbi gücünün cəbhəyə səfərbər olunmasına rəhbərliyi, siyasi-diplomatik fəaliyyətin müharibənin tələbləri üzərində qurulmasının təşkilatçılığını, uyğun informasiya mühitinin formalaşrılmasının təşəbbüskarlığını öz üzərinə götürdü. Başlanan müharibənin uğurla tamamlanması üçün dövlət aparatlarının fəaliyyəti yeni tələblər üzərində quruldu, ön və arxa cəbhələrin ən sıx əlaqələri ya-radıldı. Xüsusilə, döyüşlərin planlaşdırılması, zərbə istiqamətlərinin seçilməsi, qüvvə və vəsaitlərin cəlb edilməsi, ordu qüvvələri üçün müəyyənləşdirilmiş konkret tapşırıqların icrası Ali Baş Komandanın davamlı nəzarəti altına alındı.

Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən qəbul edilmiş plana əsasən, elə 2020-ci il sentyabr ayının 27-dən etibarən Azərbaycan Odusunun bölmələri üç istiqamətdən, Murovdağ, Ağdam-Tərtər və Füzuli-Cəbrayıl istiqamətindən Ermənistan silahlı qüvvələri üzərinə əks-hücumlar başladı. Ağdam-Tərtər istiqaməti bölgənin strateji əhəmiyyətli şəhərləri olan Ağdərə, Əsgəran, Xocalı, Xankəndi və Şuşa şəhərlərinə yetişmək üçün ən münasib istiqamət idi. Bu istiqamətlə irəliləməklə həmin şəhərləri daha qısa müddət ərzində nəzarət altına almaq olardı. Ona görə də Azərbaycan Ordusu bölmələrinin əsas zərbə istiqamətlərindən biri kimi Ağdam-Tərtər istiqaməti qəbul olunmuşdu. Lakin çox tezliklə əməliyyat planında müəyyən dəyişikliklər edildi. Bu məsələdə vaxtında çeviklik göstərilməsi isə aparılan döyüşlərin səmərəliyinə öz təsirini göstərdi.

Həmin dəyişikliyin mahiyyəti ondan ibarət idi ki, Ağdam-Tərtər istiqamətində erməni silahlı qüvvələri eşelonlaşdırılmış güclü müdafiə sistemi yarada bilmişdilər. Erməni hərbi-siyasi rəhbərliyi belə bir qənaətdə idi ki, Azərbaycan Ordusu öz məqsədinə daha tez çatmaq üçün Ağdam-Tərtər istiqamətini əsas zərbə istiqaməti olaraq seçəcəkdir. Ona görə də erməni hərbi rəhbərliyi məhz bu istiqamətin daha güclü şəkildə möhkəmləndirilməsi üçün kifayət qədər böyük vəsaitlər sərf etmişdilər.

Dağlıq Qarabağda və ətraf rayonlarda işğalın möhkəmləndirilməsi üçün aparılan fəaliyyətin təhlili də göstərirdi ki, Ağdam-Tərtər istiqaməti Azərbaycan Ordusunun əks-hücumlarının qarşısının alınması üçün müəyyənləşdirilmiş hərbi strategiyanın əsas bəndi idi. Erməni hərbi siyasi rəhbərliyinin gümanınca bu istiqamətdə mövcud olan mühəndis-istehkam sistemi bir neçə gün ərzində Azərbaycan Ordusunun hücumunun qarşısını dayandırmağa şərait yarada bilərdi. Bu istiqamətdə erməni müdafiəsinin yarılacağı günə qədər isə Ermənistanı himayə edən dövlətlərin vasitəsi ilə Azərbaycan rəhbərliyini münaqişənin hərbi yolla həllindən çəkindirmək olardı.

Ali Baş Komandan İlham Əliyev Ağdam-Tərtər istiqamətində Azərbaycan Ordusu qüvvələrinin sürətli hücumunun müvəqqəti olaraq dayandırılmasının və təxirə salınmasının səbəblərini belə açırlayırdı: "Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük və əmr verilmişdi ki, növbəti istiqamət Ağdamdır. Düşmən də bilir və artıq etiraf edir ki, əgər onlar torpaqlarımızın azad edilməsi ilə bağlı mənim şərtlərimi qəbul etməsəydilər, burada məhv olacaqdılar. Çünki biz Ağdama gəlirdik" .

Döyüşlərin sonrakı gedişi də göstərdi ki, Ali Baş Komandanın bu qərarı onun hərbi-siyasi təfəkkürünün əməli ifadəsi idi. Döyüşlərin planlaşdırılmasına və aparılmasına çevik yanaşma ilə Füzuli-Cəbrayıl istiqaməti əsas zərbə istiqaməti kimi seçilməsi isə əslində, Vətən müharibəsinin uğurunu təmin etdi. Bəlli idi ki, erməni hərbi qüvvələri Füzuli-Cəbrayıl istiqamətində də güclü müdafiə sistemi yaratmışdı. Bunu respublika Prezidenti İlham Əliyev də etiraf edirdi:

"Cəbrayıl rayonunun Soltanlı kəndi uğrunda bir neçə gün şiddətli döyüşlər gedirdi. Orada elə istehkamlar qurmuşdular ki, bəlkə də heç dünyada belə istehkamlar olmayıb" .

Strateji hədəflərin aydınlığının, həmin hədəflər çərçivəsində bölmə və qüvvələrin konkret vəzifələrinin müəyyənləşdirilməsinin, qarşılıqlı əlaqələrin səmərəli nizamlanmasının, sürət və çevikliyin Azərbaycan döyüşçülərinin sonsuz şücaəti, Azərbaycanın Ali Baş Komandanının isə qətiyyəti ilə tamamlanması ona gətirib çıxardı ki, Azərbaycan Ordusu hər gün irəli getdi, hər gün yeni-yeni mövqelər azad edildi: "Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkiləк. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik" .

Döyüşlərin bütün gedişi Ali Baş Komandanın ümumi rəhbərliyi altında həyata keçirilirdi. Onun cəbhə xəttində baş verənlərdən və döyüşlərin necə inkişaf edə biləcəyindən müfəssəl məlumatı var idi. İlham Əliyev hətta komandirlərlə əlaqə saxlayır, onlardan vəziyyət haqqında məlumat almaqla bərabər, həm də operativ göstərişlərini verirdi.

Müdafiə Nazirliyinin rəhbərliyi ilə bərabər, döyüşlərin aparılmasına cəlb olunmuş digər hərbi qurumların rəhbərləri də davamlı olaraq Silahlı Qüvvələrin Ali Baş Komandanına icra edilən tapşırıqlar, cəbhə bölgəsindəki vəziyyət haqqında vaxtaşırı məlumatlar təqdim edirdilər. Hər gün operativ müşavirələr təşkil olunur və Vətən müharibəsinin gedişi və verilən tapşırıqların icrası həmin müşavirələrdə müzakirə olunurdu.

Cəbhə bölgəsində cərəyan edən döyüşlərin və onların nəticələrinin daha detallı müzakirə edilməsi və komanda heyətinin qarşısında dayanan vəzifələrin konkretləşdirilməsi məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2020-ci il oktyabrın 25-də Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində oldu və burada operativ müşavirə keçirildi. İlham Əliyev Vətən müharibəsinin gedişi və nəticələri, bu müharibənin dayandırılması üçün Ermənistan və onun havadarları tərəfindən göstərilən cəhdlər, Ermənistanın işalçılıq siyasətindən hələ də əl çəkməməsi, cəbhə bölgəsində elan edilmiş atəşkəsin Ermənistan tərəfindən pozulması, Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsi üçün Azərbaycan döyüşçülərinin göstərdikləri böyük qəhrəmanlıqlar haqqında məlumat verdi.

Prezident İlham Əliyev bir daha açıq şəkildə bəyan etdi ki, Azərbaycan tərəfi bu müharibənin dayandırılmasına tərəfdardır – bir şərtlə ki, Ermənistan qoşunları Azərbaycan ərazisindən çıxarılsınlar. Bunun baş verməməsinin bir səbəbini də İlham Əliyev Ermənistanın havadarları tərəfindən silahlandırılması, hətta müharibənin getdiyi günlərdə təyyarələrlə Ermənistana ən müasir silahların daşınmasında görürdü. O, qətiyyətlə bildirdi ki, Azərbaycan ərazilərinin işğaldan azad ediləcəyi ana qədər Ermənistandan fərqli olaraq təkbaşına mübarizəsini davam etdirəcəkdir .

Azərbaycan lideri İlham Əliyev bu müşavirədəki çıxışı zamanı döyüşlərin təşkili ilə bağlı da bəzi fikirlərini səsləndirdi. O qeyd etdi ki, ordunun uğurları ilə bərabər, döyüş tapşırıqlarının icrası zamanı bəzi qüsurlar mövcuddur və bu qüsurlar operativ şəkildə aradan qaldırılmaqdadır. Respublika Prezidenti Vətən müharibəsini hərbi baxımdan Azərbaycan üçün böyük təcrübə məktəbi kimi baxırdı və bu təcrübənin ümumiləşdirilməsini, öyrənilməsini zəruri sayırdı. Onun fikrincə, bu müharibə qoşunların silahlandırıma siyasətinə yenidən baxılmasını aktuallaşdırdı. Ona görə də İlham Əliyev döyüşlərin aparılması üçün daha səmərəli ola biləcək hərbi texnikanın silahlanmaya alınmasını məqsədəuyğun hesab edirdi.

*(ardı 4-cü səhifədə)*

# Xalq, Lider, Ordu birliyinin möhtəşəm Zəfəri





*(əvvəli 3-cü səhifədə)*

Silahlı Qüvvələrin Ali Baş Komandanı döyüş tapşırıqlarının icrası zamanı bəzi əsassız yubanmalara yol verildiyinə də diqqəti cəlb edir, onların səbəblərinin ciddi şəkildə təhlil edilməsinin vacibliyinə toxunurdu. Bu müşavirənin mətbuat üçün açıq olan hissəsində Silahlı Qüvvələrin Ali Baş Komandanı Müdafiə Nazirliyinin rəhbər heyətinə, cəbhə bölgəsində yerləşən birlik komandirlərinə hərbi əməliyyatların aparılmasında səmərəliliyin artırılması və vaxt itkisinin qarşısının alınması barəsində tapşırıq verdi .

Vətən müharibəsinin aparılması eyni zamanda İlham Əliyevin şəxsində ali hərbi-strateji idarəetmənin təmsilçisi olan Ali Baş Komandan fəaliyyətinin yeni və müasir bir nümunəsini ortaya qoydu. Ali Baş Komandanlıq institutunun formalaşdırılması zəruriliyi, əslində, hər bir dövlətin əl atmaq məcburiyyətində qaldığı hərb işinin mahiyyətindən irəli gəlir. Müharibələr bu gün də bəşəriyyətin cığırdaşı olaraq qalmaqdadır və tarixi inkişaf heç də onların baş vermə ehtimalını aradan qaldırmamışdır.

Onun qarşısının alınması (təcavüzkar dövlətlər üçün isə onun başlanması) üçün həm ölkənin çox böyük canlı və maddi ehtiyatlarının hərəkətə gətirilməsi, həm də bu işə rəhbərliyin mərkəzləşdirilməsi obyektiv bir zərurətdir. Əks təqdirdə müharibənin artan ehtiyaclarını ödəmək və müharibədən qalib çıxmaq mümkün olmaz. Bu mənada dövlət aparatının çevik və davamlı fəaliyyət göstərməsi, ölkənin iqtisadi və səfərbərlik ehtiyatlarının hərb işi ilə səmərəli uzlaşdırılması müharibənin aparılması üçün həyati əhəmiyyət kəsb edən vaxt itkisini aradan qaldırmağa imkan verər.

Dünya müharibələr təcrübəsi də göstərir ki, güclü ordunun mövcudluğu, xalqın mübariz iradəsi, habelə dövlətin siyasi və iqtisadi gücü, cəmiyyətin mübariz mənəvi əhval-ruhiyyəsi, ön və arxa cəbhənin vəhdəti, informasiya və diplomatiya çevikliyi və s. amillər müharibənin uğurla aparılması üçün mühüm amillərdir. Lakin bu amillərin hər birinin ayrı-ayrılıqda mövcudluğu müharibənin uğurla aparılması üçün heç də yetərli deyil. Həmin amillər yalnız dövlətin təşkilati fəaliyyəti ilə məqsədyönlü siyasət çərçivəsində planlaşdırıldıqda, formalaşdırıldıqda, qarşıya qoyulan hədəf müstəvisində düzgün uzlaşdırıldıqda və məntiqli şəkildə səfərbərliyə alınaraq cəbhəyə istiqamətləndirildikdə özünün əməli nəticəsini verə bilər. Bu mənada cəmiyyət daxilində özünü göstərə biləcək ictimai-kütləvi proseslərin heç biri ordu quruculuğu və müharibə kimi mərkəzləşdirilmiş rəhbərliyi və vahid komandanlığı tələb etmir.

Çünki sərt intizamı, icraçılığı və nəzarəti tələb edən hərb işinin mahiyyəti ölkənin, dövlətin bütün potensialının bir mərkəzdə toplanmasını, bu potensialın vahid mərkəz tərəfindən idarə olunmasını və istiqamətləndirilməsini tələb edir. Bütün bunlar isə hərb işində, o cümlədən müharibələrin aparılmasında ali baş komandanların rolunu birmənalı şəkildə ön plana çıxarır. Ali Baş Komandan xüsusilə müharibə dövründə xalqın bütün gücünün hərb və müdafiə işinə səfərbər edilməsini təmin edə biləcək bir strateji vəzifə sahibidir və ona görə də bu vəzifə sahibinin öz fəaliyyətini necə quramasının dövlət maraqlarının qorunmasında müstəsna əhəmiyyəti vardır. Dünya təcrübəsi də göstərir ki, səriştəli, qətiyyətli və mübariz komandan olmadan müharibədən qalib çıxmaq mümkün deyil.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Vətən müharibəsi dövründəki fəaliyəti də bir daha onu göstərdi ki, ölçülüb-biçilmiş, əsaslandırılmış, bütün risqləri və təfərrüatları hesablanmış rəhbərlik və təşkilatçılıq olmadan müharibədən qalib çıxmaq mümkün deyildir. Bu mənada müharibə həm də dövlət idarəçiliyinin, ali baş komandanlığın sınağıdır və bu sınaqdan yalnız ən məsuliyyətli bir zamanda ən doğru seçim etməyi və bu seçimin ən düzgün icrasını təşkil etməyi bacaran ali baş komandan uğurla çıxa bilər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məhz belə keyfiyyətlərə malik olduğunu nümayiş etdirdi. Respublika Prezidenti Vətən müharibəsinin gedişində etdiyi çıxışlarda bir neçə dəfə bəyan etdi ki, hansı qərarın nə zaman və necə qəbul edilməsini o çox yaxşı bilir: “Azərbaycan xalqının əksər hissəsinin bütün ümidləri artıq tükənmişdi. Sadəcə olaraq, mən demişdim, bir daha demək istəyirəm ki, nə vaxt nəyi etmək lazımdır, necə etmək lazımdır, hansı məqamda nəyi etmək lazımdır, hər şey gərək ölçülüb-biçilsin. Elə zərbə vurmalıyıq ki, düşmən o zərbədən ayılmasın. Elə zərbə vurmalıyıq ki, düşmən bundan sonra daha baş qaldırmasın” .

Müharibə kimi kütləvi insan qırğınlarına apara biləcək bir seçimə əl atılması Ali Baş Komandandan böyük məsuliyyət tələb edir. Qəbul edilən qərarda azacıq tələsgənliyə yol verilməsi kütləvi insan qırğınlarından əlavə dövlətin özünün mövcudluğunu təhlükə altına ala bilər. Ali Baş Komandanın ustalığı ondadır ki, bütün bu məsələləri dəqiqliklə hesablaya və sonra da öz ordusunu, öz xalqını qələbəyə apara bilir. Başlıcası isə İlham Əliyev iradə nümayiş etdirdi və bununla Azərbaycanın ərazi bütövlüyünə yol açdı

Dövlət başçısı İlham Əliyev Vətən müharibəsinin gedişində müharibəyə rəhbərlikdə yeni bir təfəkkür və yanaşma ortaya qoydu, mövcud olan reallıqların sərt çərçivəsini sındıraraq Azərbaycan xalqının arzusunda olduğu bir zəfərin memarına çevrildi. Respublika Prezidenti özü də bəyan edirdi ki, Vətən müharibəsinin gedişində Ermənistanın işğalçılığına qarşı aparılan döyüşlərin dayandırılması ilə bağlı çoxlu təzyiqlər oldu, hətta BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə qətnamə qəbul edilməsinə cəhd göstərildi.

Lakin İlham Əliyevə xas olan qətiyyət, ardıcılıq, milli maraqlara bağlılıq, ata vəsiyyətini həyata keçirmək əzmi bütün bu təzyiqlərə üstün gəldi və Azərbaycan nəinki bölgədə, əslində, bütün dünya üçün əhəmiyyət kəsb edəcək bir reallıq yaratdı: “Münaqişənin həlli üçün hüquqi baza kifayət qədər genişdir. Amma baxın, bu yaxınlarda nələr baş verir? Minsk qrupunun həmsədr ölkələri BMT Təhlükəsizlik Şurasının iclasını çağırırlar. Bir dəfə artıq bunu etmişdilər. Orada qəbul edilmiş sənəd görünür ki, onları qane etmədi. Bu dəfə də bir neçə gün bundan əvvəl biz yeni sənədin ortaya çıxmasını gördük, xəbər tutduq. Dərhal biz hərəkətə keçdik və bu sənədin qəbul edilməsinə imkan vermədik. Baxmayaraq ki, üç həmsədr ölkə BMT Təhlükəsizlik Şurasına üzv olan digər ölkələrə böyük təzyiqlər edirdi. Mən bir daha demək istəyirəm ki, bizi heç bir qüvvə yolumuzdan döndərə bilməz. Döyüş meydanında əldə edilmiş uğurlar danışıqlar masasında da yeni reallıq yaradıbdır”.

İlham Əliyevin Ali Baş Komandanlığı altında cəmi ay yarım davam Vətən müharibəsində Ermənistana, faşist xislətli erməni-millətçi qüvvələrinə ağır zərbə vuruldu, Ermənistan ordusu məhv edildi, Ermənistan dövlətçiliyi isə çox dərin bir böhranla qarşılaşdı: “Biz dedik yetər artıq, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Mən Ali Baş Komandan kimi əmr verdim ki, Azərbaycan əsgəri irəli, torpağımızı azad etməliyik, işğala son qoymalıyıq, işğalçını cəzalandırmalıyıq və belə də oldu. Azərbaycan 44 gün ərzində istədiyinə nail oldu, ədaləti bərpa etdi” .

Dünya hərb təcrübəsi də birmənalı şəkildə onu deməyə əsas verir ki, müharibə şəraiti yalnız ordu üçün, ölkə üçün, xalq üçün ağır sınaq deyil. Bu şərait həm də ölkənin Ali Baş Komandanının idarəçilik qabiliyyətinin sınağıdır. Çünki xalqın da, ölkənin də, ordunun da potensialı son nəhayətdə Ali Baş Komandanın idarəçilik məharəti ilə öz səmərəsini verir. Gözlənilməz hadisələr, hərbi şəraitdə baş verən kəskin dəyişikliklər bir çox hallarda qeyri-adekvat qərarlar qəbul edilməsini və onun icrasına da fərqli yanaşılmasını tələb edə bilər.

Belə anlarda Ali Baş Komandanın təşkilatçılıq keyfiyyətləri önə çıxır ki, məhz bu keyfiyyətlər çoxlarının gözləmədiyi, çoxlarının inana bilmədiyi, çoxlarının duya bilmədiyi qərarların və idarəetmə təcrübəsinin meydana gəlməsinə yol açır. Yəni müharibə şəraitində o halda uğur əldə etmək olar ki, qəbul edilmiş qərarlarda ən kiçicik risqlərə belə yer verilməsin və bununla da hərbi uğurun əldə edilməsi üçün etibarlı baza yaradılsın.

Başqa sözlə, dövlətin, xalqın, ölkənin müqəddəratının həllinə yönəlmiş çox məsuliyyətli anlarda ən düzgün seçimi edə bilmək və həmin seçimin ən səmərəli həllinə nail olmaq Ali Baş Komandandan böyük zəka, duyum və fədakarlıq tələb edir. Belə olmasa döyüşdən qalib çıxmaq da mümkün olmaz. İlham Əliyev də Ali Baş Komandan kimi, məhz belə keyfiyyətləri nümayiş etdirə bildiyi üçündür ki, Ermənistanın və onun havadarlarının çox uzaqlara hesablanmış məkrli planlarının icrasının qarşısını uğurla almaq mümkün oldu.

Ali Baş Komandan İlham Əliyevin dilindən səslənən “Qarabağ Azərbaycandır” ifadəsi Azərbaycanın milli mübarizəsinin şüarına çevrildi, bütün xalqı öz ətrafında birləşdirdi və sonda bu diyarın yenidən Azərbaycan olmasını təmin etdi: “Qarabağ Azərbaycandır və nida” ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır” .

Hazırda xalqımız böyük Zəfərin yeni bir səhifəsini yazamqdadır. Vətənə çevrilmiş torpaqlarımızın hər qarışında sürətlə davam edən qurub-yaratmaq işləri bütün dünyanın gözü qarşısında yeni bir Azərbaycan möcüzəsinə çevrilməkdədir. Bu möcüzə Azərbaycanın müstəqilliyinə, torpaq bütünlüyünə, bu gününə və sabahına olan vətəndaş və övlad sevgisinin, haqqın və ədalətin təntənəsinin daha bir qabarıq ifadəsidir.

***Mehman SÜLEYMANOV,***
***Silahlı Qüvvələrin***
***Hərbi Akademiyasının professoru,***
***tarix elmləri doktoru***